# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**“Sığortalı tərəfindən ödənilmiş dövlət icbari şəxsi sığorta haqları və sığortaolunanlar barədə sığortaçıya verilən hesabatın forması və onun verilməsi Qaydası”nın təsdiq edilməsi haqqında**

“Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 418-VIQD nömrəli Qanununun tətbiqi və “Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 25 iyul tarixli 620 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 29 dekabr tarixli 1544 nömrəli Fərmanının 2.1.4-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Sığortalı tərəfindən ödənilmiş dövlət icbari şəxsi sığorta haqları və sığortaolunanlar barədə sığortaçıya verilən hesabatın forması və onun verilməsi Qaydası” təsdiq edilsin (əlavə olunur).

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 20 fevral 2023-cü il

№ 61

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2023-cü il 20 fevral
tarixli 61 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

# Sığortalı tərəfindən ödənilmiş dövlət icbari şəxsi sığorta haqları və sığortaolunanlar barədə sığortaçıya verilən hesabatın forması və onun verilməsi

# Q A Y D A S I

## 1. Ümumi müddəalar

1.1. Bu Qayda Azərbaycan Respublikasının "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Qanununun 4-3.2.5-ci maddəsinə, "Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında xidmət keçən diplomatik xidmət əməkdaşlarının və inzibati-texniki xidməti həyata keçirən şəxslərin dövlət icbari şəxsi sığortası haqqında" Qanununun 6-1.2.5-ci maddəsinə, "Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında" Qanununun 4-3.2.5-ci maddəsinə, "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Qanununun 30-6-cı maddəsinin yeddinci hissəsinin 5-ci bəndinə uyğun olaraq, sığortalı tərəfindən ödənilmiş dövlət icbari şəxsi sığorta haqları (bundan sonra – sığorta haqları) və sığortaolunanlar barədə sığortaçıya verilən hesabatın (bundan sonra – hesabat) formasını və onun verilməsi qaydasını müəyyən edir.

1.2. Bu Qaydada istifadə olunan anlayışlar Azərbaycan Respublikasının bu sahədə münasibətləri tənzimləyən normativ hüquqi aktları ilə müəyyən edilmiş mənaları ifadə edir.

## 2. Hesabatın verilməsi

2.1. Bu Qaydanın 2.2-ci bəndində qeyd edilən sığortalılar istisna olmaqla, digər sığortalılar üzrə müvafiq hesabat "Elektron hökumət" və ya Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (bundan sonra – Nazirlik) "e-sosial" internet portalında yerləşdirilmiş "Dövlət icbari şəxsi sığorta üzrə hesabatların təqdim edilməsi" elektron xidməti vasitəsilə sığortalının müvafiq səlahiyyətli vəzifəli şəxsi tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiq olunmaqla, Nazirliyin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin (bundan sonra – MEİS) "Dövlət icbari şəxsi sığorta" altsisteminə daxil edilir.

2.2. Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ("Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq barələrində məlumatların məxfiləşdirilməsi nəzərdə tutulan sığortaolunanlara münasibətdə), Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti və Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti üzrə hesabatlar bu Qaydanın 2 nömrəli əlavəsinə uyğun olaraq kağız daşıyıcıda (elektron daşıyıcı əlavə edilməklə) sığortalının müvafiq səlahiyyətli vəzifəli şəxsi tərəfindən imzalanmaqla Nazirliyin tabeliyində Dövlət Sosial Müdafiə Fonduna (bundan sonra – Fond) təqdim edilir və MEİS-in "Dövlət icbari şəxsi sığorta" altsisteminə daxil edilmir.

2.3. Bu Qaydanın 2.2-ci bəndində qeyd olunan hesabat Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 20 fevral tarixli 62 nömrəli Qərarı ilə təsdiq edilmiş "Sığortalıların təqdim etdiyi məlumatlar əsasında sığortaolunanların və sığortalıların sığortaçıda uçotu, habelə sığortalılar tərəfindən dövlət icbari şəxsi sığorta haqlarının hesablanması, sığortaçıya ödənilməsi, ödənilməsinə nəzarət və artıq ödənilmiş dövlət icbari şəxsi sığorta haqlarının qaytarılması Qaydası"na uyğun olaraq unikal kod əsasında tərtib edilir.

2.4. Hər rüb üzrə rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq, sığortalı tərəfindən onun bütün struktur bölmələri üzrə vahid hesabat (ilkin hesabat) mərkəzləşdirilmiş qaydada sığortaçıya bu Qaydanın 2.1-2.3-cü bəndlərinin tələbləri nəzərə alınmaqla bu Qaydanın 1-6 nömrəli əlavələrində qeyd edilmiş formada tərtib olunaraq təqdim edilir.

2.5. Sığortalı tərəfindən cari büdcə ilinin rübləri üzrə ilkin hesabatlardakı məlumatlarda düzəlişlər edilməsi məqsədilə təqdim edilən dəqiqləşdirilmiş hesabatlar növbəti büdcə ilinin ikinci hesabat dövrünədək təqdim edilə bilər.

2.6. Sığorta məbləğinin azalmasına səbəb olan dəqiqləşdirilmiş hesabatlar sığorta ödənişi almış sığortaolunanlara münasibətdə təqdim edilə bilməz.

## 3. Hesabatların saxlanılması, qorunması və arxivləşdirilməsi

3.1. Hesabatların saxlanılması, qorunması və arxivləşdirilməsi (bu Qaydanın 2.2-ci bəndində qeyd edilən hesabatlar istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli

263 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları”nın tələblərinə riayət olunmaqla MEİS-in “Dövlət icbari şəxsi sığorta” altsistemi vasitəsilə həyata keçirilir.

3.2. Bu Qaydanın 2.2-ci bəndində qeyd edilən hesabatların saxlanılması, qorunması və arxivləşdirilməsi Fond tərəfindən kağız daşıyıcıda (elektron daşıyıcı əlavə edilməklə) təmin edilir.

“Sığortalı tərəfindən ödənilmiş dövlət icbari şəxsi sığorta haqları və sığortaolunanlar barədə sığortaçıya verilən hesabatın forması və onun verilməsi Qaydası”na

**1 nömrəli əlavə**

## “Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq ödənilmiş sığorta haqları və sığortaolunanlar barədə hesabat forması

| SIĞORTALI HAQQINDA MƏLUMAT | |
|---|---|
| Sığortalının adı | |
| Sığortalının uçot nömrəsi (SUN) | |
| Sığortalının VÖEN-i | |
| Hesabat dövrünün əvvəlinə borc | |
| Hesabat dövrünün əvvəlinə artıq ödənilmiş sığorta haqqı | |

| 1. HESABAT | |
|---|---|
| 1.1. hesabat dövrü (il rüb) | |
| 1.2. hesabatın statusu | ilkin |
| | dəqiqləşdirilmiş |

| Sıra №-si | Sığortaolunanın soyadı, adı, atasının adı | FİN | Sığorta haqqı | | | Sığorta məbləği |
|---|---|---|---|---|---|---|
| | | | hesablanmış | ödənil-miş | qalıq | |
| 1. | | | 110 | | | **11.000,00** |
| 2. | | | 110 | | | **11.000,00** |

| Hesabat dövrünün sonuna borc | |
|---|---|
| Hesabat dövrünün sonuna artıq ödənilmiş sığorta haqqı | |

| Cəmi | | | | |
|---|---|---|---|---|

"Sığortalı tərəfindən ödənilmiş dövlət icbari şəxsi sığorta haqları və sığortaolunanlar barədə sığortaçıya verilən hesabatın forması və onun verilməsi Qaydası"na

**2 nömrəli əlavə**

**Tam məxfi**
**(doldurulduqdan sonra)**

**"Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq barələrində məlumatların məxfiləşdirilməsi nəzərdə tutulan sığortaolunanlar üzrə ödənilmiş sığorta haqları və həmin sığortaolunanlar barədə hesabat forması**

| SIĞORTALI HAQQINDA MƏLUMAT | |
|---|---|
| Sığortalının adı | |
| Sığortalının uçot nömrəsi (SUN) | |
| Sığortalının VÖEN-i | |
| Hesabat dövrünün əvvəlinə borc | |
| Hesabat dövrün əvvəlinə artıq ödənilmiş sığorta haqqı | |

| 1. HESABAT | |
|---|---|
| 1.1. hesabat dövrü (il rüb) | |
| 1.2. hesabatın statusu | ilkin |
| | dəqiqləşdirilmiş |

| Sıra №-si | Unikal kod | Sığorta haqqı | | | Sığorta məbləği |
|---|---|---|---|---|---|
| | | hesablanmış | ödənilmiş | qalıq | |
| 1. | | 110 | | | **11.000,00** |
| 2. | | 110 | | | **11.000,00** |

| | |
|---|---|
| **Hesabat dövrünün sonuna borc** | |
| **Hesabat dövrünün sonuna artıq ödənilmiş sığorta haqqı** | |

| | | | | |
|---|---|---|---|---|
| **Cəmi** | | | | |

Hesabatın tərtib edildiyi tarix

Sığortalının rəhbərinin soyadı, adı, atasının adı ______________ (İmza)

Sığortalının məsul şəxsinin soyadı, adı, atasının adı ______________ (İmza)

"Sığortalı tərəfindən ödənilmiş dövlət icbari şəxsi sığorta haqları və sığortaolunanlar barədə sığortaçıya verilən hesabatın forması və onun verilməsi Qaydası"na

**3 nömrəli əlavə**

## "Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq ödənilmiş sığorta haqları və sığortaolunanlar barədə hesabat forması

| SIĞORTALI HAQQINDA MƏLUMAT | |
|---|---|
| Sığortalının adı | |
| Sığortalının uçot nömrəsi (SUN) | |
| Sığortalının VÖEN-i | |
| Hesabat dövrünün əvvəlinə borc | |
| Hesabat dövrünün əvvəlinə artıq ödənilmiş sığorta haqqı | |

| 1. HESABAT | |
|---|---|
| 1.1. hesabat dövrü (il, rüb) | |
| 1.2. hesabatın statusu | ilkin |
| | dəqiqləşdirilmiş |

| Sıra №-si | Sığortaolunanın soyadı, adı, atasının adı | FİN | Əmək-haqqı | Sığorta haqqı | | | Sığorta məbləği |
|---|---|---|---|---|---|---|---|
| | | | | hesab-lanmış | ödənilmiş | qalıq | |
| 1. | | | | | | | |
| 2. | | | | | | | |

| | |
|---|---|
| Hesabat dövrünün sonuna borc | |
| Hesabat dövrünün sonuna artıq ödənilmiş sığorta haqqı | |

| | | | | |
|---|---|---|---|---|
| Cəmi | | | | |

"Sığortalı tərəfindən ödənilmiş dövlət icbari şəxsi sığorta haqları və sığortaolunanlar barədə sığortaçıya verilən hesabatın forması və onun verilməsi Qaydası"na

**4 nömrəli əlavə**

## Azərbaycan Respublikasının Müdafiə Nazirliyi tərəfindən ödənilmiş sığorta haqları və sığortaolunanlar barədə hesabat forması

| SIĞORTALI HAQQINDA MƏLUMAT | |
|---|---|
| Sığortalının adı | |
| Sığortalının uçot nömrəsi (SUN) | |
| Sığortalının VÖEN-i | |
| Hesabat dövrünün əvvəlinə borc | |
| Hesabat dövrünün əvvəlinə artıq ödənilmiş sığorta haqqı | |

| 1. HESABAT | |
|---|---|
| 1.1. hesabat dövrü (il, rüb) | |
| 1.2. hesabatın statusu | ilkin |
| | dəqiqləşdirilmiş |

| Sığortaolunanların sayı, cəmi | Sığorta haqqı | | | Sığorta məbləği, cəmi |
|---|---|---|---|---|
| | hesablanmış, cəmi | ödənilmiş, cəmi | qalıq, cəmi | |
| | | | | |

| Hesabat dövrünün sonuna borc | |
|---|---|
| Hesabat dövrünün sonuna artıq ödənilmiş sığorta haqqı | |

| Cəmi | | | | |
|---|---|---|---|---|

**Qeyd.** 2023-cü il yanvarın 1-dən 2024-cü il yanvarın 1-dək tərtib edilən hesabatlara tətbiq edilir.

“Sığortalı tərəfindən ödənilmiş dövlət icbari şəxsi sığorta haqları və sığortaolunanlar barədə sığortaçıya verilən hesabatın forması və onun verilməsi Qaydası”na

**5 nömrəli əlavə**

## “Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq ödənilmiş sığorta haqları və sığortaolunanlar barədə hesabat forması

| SIĞORTALI HAQQINDA MƏLUMAT | |
|---|---|
| Sığortalının adı | |
| Sığortalının uçot nömrəsi (SUN) | |
| Sığortalının VÖEN-i | |
| Hesabat dövrünün əvvəlinə borc | |
| Hesabat dövrünün əvvəlinə artıq ödənilmiş sığorta haqqı | |

| 1. HESABAT | |
|---|---|
| 1.1. hesabat dövrü (il, rüb) | |
| 1.2. hesabatın statusu | ilkin |
| | dəqiqləşdirilmiş |

| Sıra №-si | Sığortaolunanın soyadı, adı, atasının adı | FİN | Vəzifə maaşı | Sığorta haqqı | | | Sığorta məbləği |
|---|---|---|---|---|---|---|---|
| | | | | hesab-lanmış | ödənil-miş | qalıq | |
| 1. | | | | | | | |
| 2. | | | | | | | |

| | |
|---|---|
| Hesabat dövrünün sonuna borc | |
| Hesabat dövrünün sonuna artıq ödənilmiş sığorta haqqı | |

| | | | | |
|---|---|---|---|---|
| Cəmi | | | | |

“Sığortalı tərəfindən ödənilmiş dövlət icbari şəxsi sığorta haqları və sığortaolunanlar barədə sığortaçıya verilən hesabatın forması və onun verilməsi Qaydası”na

**6 nömrəli əlavə**

## “Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında xidmət keçən diplomatik xidmət əməkdaşlarının və inzibati-texniki xidməti həyata keçirən şəxslərin dövlət icbari şəxsi sığortası haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq ödənilmiş sığorta haqları və sığortaolunanlar barədə hesabat forması

| SIĞORTALI HAQQINDA MƏLUMAT | |
|---|---|
| **Sığortalının adı** | |
| **Sığortalının uçot nömrəsi (SUN)** | |
| **Sığortalının VÖEN-i** | |
| **Hesabat dövrünün əvvəlinə borc** | |
| **Hesabat dövrünün əvvəlinə artıq ödənilmiş sığorta haqqı** | |

| 1. HESABAT | |
|---|---|
| **1.1. hesabat dövrü (il, rüb)** | |
| **1.2. hesabatın statusu** | **ilkin** |
| | **dəqiqləşdirilmiş** |

| Sıra №-si | Sığortaolunanın soyadı, adı, atasının adı | FİN | Tutduğu vəzifə | Sığorta haqqı | | | Sığorta məbləği |
|---|---|---|---|---|---|---|---|
| | | | | hesablanmış | ödənilmiş | qalıq | |
| 1. | | | | | | | |
| 2. | | | | | | | |

| Hesabat dövrünün sonuna borc | |
|---|---|
| **Hesabat dövrünün sonuna artıq ödənilmiş sığorta haqqı** | |

| Cəmi | | | | |
|---|---|---|---|---|

**Qeyd.** Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərinin və konsulluqlarının başçılarına münasibətdə sığorta məbləği 11.000 (on bir min) manat, digər diplomatik vəzifə tutan şəxslərə münasibətdə sığorta məbləği 6.600 (altı min altı yüz) manat, inzibati-texniki xidməti həyata keçirən şəxslərə münasibətdə sığorta məbləği 4.400 (dörd min dörd yüz) manat məbləğində sığorta olunurlar.